Cashback hesablanması qaydaları

- **Yelo Light kartı**: Market **2%**, Geyim mağazaları **4%**, Kafe&Restoran **4%**, Yanacaq doldurma məntəqələri **4%** yüksək faizli cashback seçimlərini təqdim edir. Bu seçimlərdən yalnız ikisi aktivləşdirilə bilər. Əlavə olaraq, seçdiyin iki yüksək faizli kateqoriyalardan başqa digər nağdsız ödənişlərdə standart (hər yerdə) **0.5%** cashback gəliri hesablanır;

- **Yelo Premium kartı**: Market **2%**, Geyim mağazaları **5%**, Kafe&Restoran **5%**, Yanacaq doldurma məntəqələri **5%** yüksək faizli cashback seçimlərini təqdim edir. Bu seçimlərdən yalnız ikisi aktivləşdirilə bilər. Əlavə olaraq, seçdiyin iki yüksək faizli kateqoriyalardan başqa digər nağdsız ödənişlərdə standart (hər yerdə) **1%** cashback gəliri hesablanır;

- Əgər sənin həm Yelo Light, həm də Yelo Premium kartın varsa, mobil əlavədə kartlardan yalnız birini seçərək yüksək faizli cashback imkanından yararlana bilərsən. Bununla bərabər, seçim etmədiyin digər kartdan da standart cashback faizi üzrə cashback qazanılır;

- Seçimləri etmək üçün hər hansı minimum dövriyyə tələbi mövcud deyil;

- Yüksək faizli iki seçimdən bir ay ərzində maksimum 100 AZN qazanmaq mümkündür.
  Standart faizli cashback əməliyyatlarından da ay ərzində qazanıla biləcək maksimum məbləğ 100 AZN təşkil edir.

- YDM kateqoriyası üzrə bir ay ərzində maksimum 10 AZN yüksək cashback qazanıla bilər. Daha sonra YDM ödənişlərində standart faizli cashback hesablanır və bu əməliyyatlardan qazanılan məbləğə heç bir limit tətbiq olunmur;

- Digər kateqoriyalar üzrə maksimum limitlər təyin olunmayıb və ay ərzində ümumi 100 AZN qazanmaq mümkündür;

- Yüksək faizli kateqoriyalardan qazanıla bilən maksimal məbləğ limiti hər karta görə deyil, müştəri üzrə təyin olunur;

- Qazanılan cashback məbləği 3-5 iş günündən sonra cashback hesabına köçür və mobil əlavədə cashback balansında əks olunur;

yelo

Cashback hesablanması qaydaları

- Qazanılan cashback məbləği istənilən vaxt yalnız öz hər hansı Yelo kartına transfer edilə bilər, müddət və yaxud köçürmə üçün məbləğ limiti mövcud deyil;

- Yüksək faizli 2 kateqoriyanın dəyişdirilməsi hər ayın 1-indən aktiv olur. Əgər ayın 1-i hər hansı seçim edilməzsə, köhnə seçimlər ilə cashback qazanmağa davam edəcəksən və istədiyin zaman seçimlərini dəyişə bilərsən;

- Seçilmiş yüksək faizli kateqoriyaların dəyişdirilməsi yalnız mobil əlavə üzərindən aparıla bilər;

- Yelo kartında olan cashback məbləği 3 ay müddətində kart və yaxud cari hesabına köçürülməzsə, yığılmış cashback məbləği avtomatik olaraq həmin Yelo karta köçürülür;

- Həyata keçirilən nağdsız ödənişdən sonra qazanılan cashback məbləği həm əməliyyat şəklində, həm də şəxsi cashback səhifəsində **"Gözləmədə"** statusuna düşür. Əməliyyat reallaşan gündən 3-5 iş günü sonra, qazanılan cashback məbləği statusunu dəyişərək **"Təsdiqlənən"** statusuna əlavə edilir. Ləğv olunan əməliyyatlar zamanı həmin məbləğ **"Ləğv olunan"** statusunda yer alır;

- Əgər ləğv olunan ödəniş əməliyyatı zamanı müştərinin cashback balansında qazanılan cashback məbləği artıq mövcud deyilsə, o zaman əməliyyat qaytarılan zaman müştəri hesabına köçürülən məbləğdən cashback məbləği çıxılır və bank hesabına qaytarılır;

yelo

Cashback hesablanması qaydaları

Cashback-in hesablanması aşağıdakı əməliyyatlar üçün nəzərdə tutulmur:

1. Ödəniş kartından vəsait məxaric etdikdə (ATM-Cash, Pos-Cash kimi əməliyyatlar);
2. Kartdan karta köçürmə əməliyyatları (Card-to-Card, Visa Direct, Mastecard Money Send);
3. Elektron cüzdanların balansına vəsaitin mədaxili (QIWI, YandexMoney və s);
4. Borcun bağlanmasına yönəldilən onlayn ödənişlər (ipoteka, istehlak krediti, taksit, güzəşt müddəti ilə borcun ödənilməsi və s.);
5. Dövlət Ödəmə Portalı (HÖP) vasitəsi ilə həyata keçirilən onlayn ödəmələr (Kommunal xidmətlər, dövlət ödənişləri, cərimələr, vergilər, gömrük rüsumları və s);
6. Mobil operatorlara ödəniş etdikdə;
7. ASAN ödənişləri;
8. İctimai nəqliyyat ödənişləri;
9. Mərc oyunları;
10. Xaricdə yerləşən mağazalarda və online saytlarda alış veriş etdikdə.

yelo

Cashback hesablanması qaydaları

Cashback hesablanmasında nəzərə alınmayan əməliyyatlar üzrə MCC kodlar

1100·ASAN
4011·RAILROADS
4111·LOCAL/SUB COMMUTER PSGR TRNP, INCL FERRIES OR WATER TRNP
4112·PASSENGER RAILWAYS
4131·BUS LINES, INCLUDING CHARTERS, TOUR BUSES
4814·TELECOMMUNCATIONS SERV INCL LOCA/LONG DIST CREDIT & FAX
4829·MONEY ORDERS-- WIRE TRANSFER
4899·CABLE AND OTHER PAY TELEVISION SERVICES
4900·ELECTRIC, GAS, SANITARY, TELEPHONE OR WATER UTILITIES
6010·FINANCIAL INSTITUTIONS- MANUAL CASH DISBURSEMENTS
6011·FINANCIAL INSTITUTIONS- AUTOMATED CASH DISBURSEMENTS
6012·FINANCIAL INSTITUTIONS- MERCHANDISE & SERVICES
6050·QUASI CASH-MEMBER FINANCIAL INSTITUTION
6051·QUASI CASH
6532·PAYMENT TRANSACTION- MEMBER FINANCIAL I
6538·MASTERCARD MONEYSEND FUNDING TRANSACTIOI
6540·POI FUNDING TRANSACTIONS
7800·GOVERNMENT-OWNED LOTTERIES
7801·GOVERNMENT LICENSED CASINOS (ONLINE GAMBLING)
7802·GOVERNMENT LICENSED HORSE/DOG RACING
7995·BETTING, WAGERING, LOTTERY, GAMBLING TICKETS OR CHIPS
9399·GOVERNMENT SERVICES (NEC) OR FIRE DEPARTMENTS
9399·GOVERNMENT SERVICES (NEC) OR FIRE DEPARTMENTS
9406·Government-owned Lottery (Specific Countries)
9754·GAMBLING-HORSE, DOG RACING-ST LOTTERY

yelo

Cashback hesablanması qaydaları

Cashback hesablanmasında nəzərə alınmayan əməliyyatlar üzrə MCC kodlar

6211 SECURITIES–BROKERS/DEALERS
6300 INSURANCE SALES, UNDERWRITING, AND PREMIUMS
4816 (COMPUTER NETWORK/INFORMATION SERVICES) INTERNET ACCESS
6513 (REAL ESTATE AGENTS AND MANAGERS)
7361 (EMPLOYMENT AGENCIES AND TEMPORARY HELP SERVICES)
7311 (ADVERTISING SERVICES)
9311 (TAX PAYMENTS)
9402 (POSTAL SERVICES–GOVERNMENT ONLY)

yelo